*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (4) 2024*
*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:11.03.2024*
*Kabul tarihi |Accepted:10.07.2024*
*Yayın tarihi |Published:25.08.2024*

**Khatira Gahramanova**

https://orcid.org/0000-0002-7167-5166
*Senior researcher, Azerbaijan National Academy of Sciences Institute of History named after A.A.Bakikhanov Azerbaijan, xatira.qahramanova.71@mail.ru*

*Atıf Künyesi | Citation Info*
Gahramanova, K. (2024). Azərbaycanda Ukrayna diasporunun inkişafı tarixindən. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (4). 2320-2327. https://doi.org/10.46868/atdd.2024.708

# Azərbaycanda Ukrayna Diasporunun İnkişafı Tarixindən

***Xülasə***

*Azərbaycan Respublikasını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. Əgər Rusiya İmperiyası və Sovetlər birliyi dövründə Azərbaycanda yaşayan slavyan xalqlarının nümayəndələri özlərini rus adlandırırdılarsa, 1989-cu il siyahıyaalması zamanı artıq bu qrupda ukraynalıların özünü identifikasi-yasında güclənmə nəzərə çarpırdı. XIX əsrin sonlarında Rusiya İmperiyasında sənayenin inkişafı və yeni torpaqların mənimsənilməsi prosesi zamanı, Azərbaycan da daxil olmaqla Qafqazda əhalinin güclü miqrasiyası baş verdi. Köç edənlərin böyük qismi Ukrayna ərazisindən idi. Yüzillik boyu ukraynalılar öz dillərini, adət-ənənələrini, mədəniyyətlərini saxlamağa çalışmış, özlərinin tarixi vətəni – Ukrayna ilə əlaqələri saxlamağa və inkişaf etdirməyə cəhd göstərmişlər. Rəsmi məlumatlara əsasən 1990-cı ildə Azərbaycandan Ukraynaya 12794 vətəndaş gedib, Ukraynadan isə 4355 nəfər gəlmişdir. Məqalədə Ukrayna xalqı ilə Azərbaycan xalqı arasında iqtisadi, mədəni və siyasi əlaqələrin tarixi faktlarına toxunulub.*

***Açar sözlər***: *Azərbaycan, Ukrayna, diaspora, tarix, ukraynalılar, Respublika*

BY NC
Creative Commons Licence

# From the History of the Development of the Ukrainian Diaspora in Azerbaijan

***Abstract***

*The idea of Azerbaijanism, which unites the Republic of Azerbaijan, serves the preservation of independence, democratic development, and the establishment of a legal and social state. Although representatives of the Slavic peoples living in Azerbaijan during the Russian Empire and the Soviet Union called themselves Russians, the self-identification of Ukrainians in this group was already noticeable during the 1989 census. In the late 19th century, in the course of the development of industry in the Russian Empire and the seizure of new territories, there was a strong population migration in the Caucasus, including Azerbaijan. Most of the immigrants were from Ukrainian lands. For a century Ukrainians have tried to preserve their language, traditions and culture, to maintain and develop relations with their historical homeland Ukraine. According to official data, in 1990, 12,794 citizens left Azerbaijan for Ukraine and 4,355 people came from Ukraine to Azerbaijan. In this article, the historical facts of economic, cultural and political relations between the people of Ukraine and the people of Azerbaijan are presented.*

***Keywords:*** *Azerbaijan, Ukraine, diaspora, history, Ukrainians, Republic*

## Giriş

Müasir dövrdə beynəlxalq münasibətlər sistemində diaspor prosesləri, miqrasiya siyasəti dünya ölkələrinin diqqətini daha çox cəlb etməkdədir. Dünya əhalisinin sürətlə artması ilə yanaşı inkişaf edən miqrasiya prosesləri, diaspor məsələləri hər bir dövlətin xarici və daxili siyasətinə özünəməxsus şəkildə təsir etməkdədir. Məhz bu səbəbdən də ölkə və dövlətlər beynəlxalq diaspor siyasətinin aktiv iştirakçılarına çevrilirlər. Diaspor könüllü fəaliyyət olmaqla ilk növbədə ictimai xarakter daşıyır. Bu baxımdan diaspor mürəkkəb təyinata malikdir. Bu proses düzgün istiqamətləndirilməzsə, maraqlı qüvvələr diaspordan öz məqsədlərinə çatmaq üçün alət kimi istifadə edə bilərlər. Ona görə də diasporun təşkilində strategiya düzgün və dayanıqlı qurulmalıdır. Dünya siyasətində diasporların müstəsna rolu var və onlar dövlətlərin xarici siyasətində mühüm yer tuturlar. Azərbaycan Respublikasının beynəlxalq aləmdə layiqli yerini tutmasında, dövlətlərarası münasibətlərin inkişafında milli diasporun rolu hiss olunmaqdadır. Azərbaycan diasporu daha böyük potensiala malikdir. Bu potensial respublikamızın inkişafına, dünyaya inteqrasiyasına daha böyük töhfələr verə bilər. Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, müasir Azərbaycan milli tarixşünaslığı üçün elmi və siyasi əhəmiyyət kəsb edən problemlərdən biri dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporunun yaranması, formalaşması və fəaliyyətinin tarixinin tədqiqi məsələsidir.Lakin biz bu məqalədə tətqiqat amili olaraq Azərbaycanda fəaliyyət göstərən Ukrayna diasporasını mövzu olaraq araşdırmışıq.

Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələri azərbaycan vətəndaşları olaraq azərbaycançılıq idealogiyasının mühüm hissəsini təşkil edir. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanıb. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır. "Azərbaycanın varı, dövləti təkcə onun pambığı yeraltı –yerüstü sərvətləri deyil, ərazisində yaşayan xalqlardır" (Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolü, 2012). Ulu öndər Heydər Əliyevin sözləri ilə məqaləni davam etmək istəriz. Bu sözlər Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsinin nə qədər qiymətli olduğunu bizə bir daha xatırladır. Çoxmillətli Azərbaycan Respublikasını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir. Ümummilli lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan parlamentindəki çıxışında demişdir:

*''Azərbaycan ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bunu əməli surətdə həyata keçirə bilsək, Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik''* (Azərbaycan Diasporuna dövlət qayğısı, 2006 s. 60). Bununla ulu öndər Azərbaycanda hakimiyyətin mövqeyini əks etdirən azərbaycançılıq ideyasının əsaslarını bəyan etmişdir.

**1.Azərbaycan ve Ukrayna arasındaki əlaqələr**

Avropanın böyük ölkələrindən biri olan Ukrayna Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin tarixi keçmişi vardır. Bu münasibətləri araşdırdıqda, XX əsrin əvvəllərində Ukraynanın müxtəlif şəhərlərində təhsil alan azərbaycanlı tələbələrin böyük rol oynadığının şahidi oluruq. Ukraynada təhsil alan tələbələrin sayəsində Ukrayna ictimaiyyəti Azərbaycan haqda, Azərbaycan ictimaiyyəti isə Ukrayna haqda məlumatlanmağa başlamışlar. Araşdırmalara əsasən 200-ə yaxın azərbaycanlı gəncin mərkəz Kiyev olmaqla digər böyük şəhərlərdə təhsil aldıqları arxiv sənədlərindən məlum olmuşdur. Hansı ki, bu tələbələrin əksəriyyəti sonrakı illərdə Azərbaycanın ictimai-siyasi tarixində öz adları ilə möhürlərini vuran şəxslər olmuşlar. Biz bu tələbələrə Tağı Şahbazi Simurq, Nəriman Nərimanov, Şəfibəy Rüstəmbəyli, Yusif Vəzir Çəmənzəminli, Cəlil Sadıqov, Sadıq bəy Ağazadə, Yusif Salehov, Cahangir Həmzəyev, Mustafa Topçubaşov və s. misal göstərə bilərik. Azərbaycanlı gənclər təhsil aldıqları dövrdə elmlə yanaşı ictimai-siyasi fəaliyyətlərdə məşğul olmuşdurlar.Bu tələbələrin sırasında Nəriman Nərimanovu,Yusif Vəzir Çəmənzəminlini, Cəlil Sadıxovu xüsusilə qeyd etmək lazımdır.

1999 ildə Ukrayna Azərbaycanlıları Konqresi (UAK) təsis edildi.Ukrayna Azərbaycanlıları Konqresinin təsis edilmə səbəbi, 1997 ci ildə Ulu Öndər Heydər Əliyevin Ukrayna Respublikasına rəsmi səfəri zamanı soydaşlarımızla görüşündə verdiyi əsas təlimat və öhdəliklər olmuşdur.Görüş zamanı Heydər Əliyev Ukrayna Respublikasında fəaliyyət göstərən bütün mərkəz və cəmiyyətlərin bir araya gələrək bir qurum daxilində birləşmələrinin vaacib olduğunu bildirmişdir.Ulu Öndərin Heydər Əliyevin uzaq görən siyasəti nəticəsində Ukraynada yaşayan soydaşlarımız bir mərkəz ətrafında birləşdilər.Qeyd edək ki, UAK Azərbaycan diasporu tarixində təsis edilən ilk Konqres olmuşdur.

Ukraynada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları, o cümlədən Azərbaycanda fəaliyyət göstərən Ukrayna diaspor təşkilatları ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynayır. Ukrayna Respublikasında bir çox Azərbaycan diaspor təşkilatları və milli mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlərin arasında fəal fəaliyyət göstərən "Ümum Ukrayna Birləşmiş Diasporu" təşkilatı da vardır. Ukraynada fəaliyyət göstərən digər böyük təşkilat "Ukrayna Azərbaycanlılarının Birləşmiş Konqresi"dir. Konqresin sədri Ukrayna Millətlər Assambleyasının prezidenti Rövşən Tağıyevdir. Diaspor quruculuğunda yeni-yeni nailiyyətlər müşahidə olunmaqdadır. İlk növbədə diaspor təşkilatlarının icma daxilində birgə fəaliyyət göstərməsi nəzərdə tutulur. Bunun üçün Ukraynada işçi qrupu yaradılmışdır. Yeni yaradılmış işçi qrupu Ukrayna Azərbaycanlılarının Koordinasiya Şurasının təsis edilməsi ilə bağlı ümumi razılığa gəlmiş və birgə işin vacibliyi barədə qərar qəbul etmişdir. Azərbaycan Respublikasının bu sahəyə dəstəyi həmişə olduğu kimi göstərilir və Diasporla İş Üzrə Dövlət Komitəsi yeni layihələri ilə xaricdə yaşayan vətəndaşlarımıza hər zaman dəstək olurlar.Azərbaycan dövlətinin əsas məqsədlərindən biri də dünya miqyasında "Azərbaycan Diaspor Şəbəkəsi" yaratmaq və bununla da Azərbaycan diasporunun təsirini artırmaqdır. Buna nail olmaq üçün ilk növbədə ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən müxtəlif Azərbaycan cəmiyyətlərinin birliyini təmin etmək, onların təşkilatlanmasına kömək etməkdir. UAK-ın yaradılmasından az sonra ölkənin 12 regional təşkilatını yaratmaq üçün təsis konfransı çağırıldı. Bu proses uğurla həyata keçirildi və indi də davam edir. Bunun nəticəsidir ki, bu qurumun vilayət təşkilatları hazırda 27 rayonda fəaliyyət göstərir (Azərbaycanın Cari Arxivi Ukrayna Tədris-Mədəniyyət Mərkəzi, 2001-ci il hesabatı).

Qeyd edək ki, bu gün Ukrayna Respublikası öz tarixinin ən ağrılı,çətin günlərini yaşayır.2022-ci il fevralın 24-də Rusiya dövlətinin prezidenti Ukraynaya qarşı "xüsusi hərbi əməliyyatın" başlandığını qeyd etdi. 2022-ci il fevralın 21-də Vladimir Putin "Donetsk Xalq Respublikası" və "Luqansk Xalq Respublikası"-nın müstəqilliyinin tanıdılmasını bəyan etməklə məhz fevralın 24-də xüsusi əməliyyat adı ilə başladılan müharibənin ölkənin "

demilitazasiyası" məqsədi oldugunu bildirdi. Səbəb olaraq Donetsk və Luqansk Xalq Respublikalarının müstəqilliyinin tanınması və ərazilərinin qorunması idi.Ukrayna xalqı vətəni qorumaq üçün səfərbər oldu.Müharibə bu günə qədər davam edir. Biz Azərbaycan xalqı olaraq hər zaman sülhün, əmin-amanlığın tərəfdarı olmuşuq.Ukraynada hazırkı vəziyyət Azərbaycan diaspor cəmiyyət və mərkəzlərin fəaliyyətinədə kifayət qədər təsir etmişdir.Bildiyimiz qədəri müharibə nəticəsində Ukraynanı tərk edən ,başqa ölkələrdə sığınacaqlara üz tutan ukrayna vətəndaşlarının içərisində digər ölkələrində nümayəndələri az deyildir.O cümlədən soydaşlarımızın bir hissəsi döğma vətənə qayıtdı.Bir hissəsi isə digər ölkələrdə məskunlaşıb.Hazırda Ukraynada fəaliyyət göstərən soydaşlarımızın dəqiq sayı haqqında fikir söyləmək mümkün deyil.Ümüd edirikki, müharibə sona çatdıqdan sonra onlar haqqında daha ətraflı tətqiqat aparılacaq.

**2.Azərbaycanda formalaşan Ukrayna diasporu**

XIX əsrin sonlarında sənayenin inkişafı və yeni torpaqların mənimsənilməsi prosesi zamanı, Azərbaycan da daxil olmaqla Qafqazda əhalinin güclü miqrasiyası baş verdi. Köç edənlərin böyük qismi Ukrayna ərazisindən idi. Yüzillik boyu ukraynalılar öz dillərini, adət - ənənələrini, mədəniyyətlərini saxlamağa çalışmış, özlərinin tarixi vətəni - Ukrayna ilə əlaqələri saxlamağa və inkişaf etdirməyə cəhd göstərmişlər.

XX əsrin əvvəllərində onların bu zəhmətləri öz bəhrəsini verir. Belə ki, Azərbaycanda ukraynalıların cəmiyyəti formalaşır və bu diasporun yaranmasına gətirib çıxarır (Aliev, 2004, s. 150). 1907-ci ilin 4 iyununda Bakıda Ukrayna intelegensiyasının (V.T.Qolovnya, L. M. Qobulyanskiy, S. M. Remennikov, K. A. Melnikov, V. M. Mişon, İ. İ. Lizoqub, V. K. Seredin) təşəbbüsü ilə T. Q. Şevçenko adına «Просвіта» cəmiyyəti yaradılır. Ukrayna «Просвіта» cəmiyyəti o dövrdə Bakıda fəaliyyət göstərən ən vacib cəmiyyətlərdən idi (Aliev, 2004, s. 150). Əgər Rusiya İmperiyası və Sovetlər birliyi dövründə Azərbaycanda yaşayan slavyan xalqlarının nümayəndələri özlərini rus adlandırırdılarsa, 1989-cu il siyahıyaalması zamanı artıq bu qrupda ukraynalıların özünü identifikasiyasında güclənmə nəzərə çarpırdı. Respublikada rusların sayının mütləq və ya nisbi azalmasının fonunda ukraynalıların sayının 20 faiz artması qeyd olundu (Ukraynalılarla azərbaycanlıları birləşdirən çoxlu dəyərlər var, Mədəniyyət, 2012, 18 iyul, s.10). Beləliklə, Ukrayna köklərinə sahib olmasına baxmayaraq özünü əvvəllər Ukrayna mədəniyyətindən çox ruslara aid edənlər, artıq Ukrayna identifikasiyasını seçməyə başladılar.

1989-cu il siyahıyaalmasına görə Azərbaycanda 32,3 min ukraynalı yaşayırdı. 2002-ci il 1 yanvar tarixinə olan rəsmi məlumatlara görə Azərbaycan ərazisində yaşayan ukraynalıların sayı 29 min təşkil etmişdir. Ukraynalılar sayına görə digər xalqlar arasında 8 yeri tutur. Rəsmi

məlumatlara əsasən 1990-cı ildə Azərbaycandan Ukraynaya 12794 vətəndaş getmiş, Ukraynadan isə 4355 nəfər gəlmişdir (Azərbaycan Respublikasının Dövlət Arxivi fond. 3189, list 2, iş 411, v. 131 (ARDA).

Azərbaycanda ukraynalıların təşkilatlanması 1990-cı illərin ortalarına təsadüf edir. 1992-ci ildə «Azərbaycanda yaşayan xalqların həmrəyliyi Respublika cəmiyyəti» («Содружество») yarandı (Azərbaycan Respublikasının Dövlət Arxivi fond 3189, list 1, iş 143, v.105 ARDA). Bu təşkilat müxtəlif milli təşkilatları və cəmiyyətləri (rus və tatar cəmiyyəti, yəhudi mədəni mərkəzi, ləzgi cəmiyyəti və s.) özündə birləşdirdi. 1992-ci ildə Sumqayıtda «Lesi Ukrainka adına Ukrayna mədəniyyəti Mərkəzi» yaradıldı. Mərkəz Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş və ictimai cəmiyyət kimi fəaliyyət göstərir. 1994-cü ildə «Azərbaycanda yaşayan xalqların həmrəyliyi Respublika cəmiyyəti»nin Ukrayna bölməsi yaradıldı. Onun bazası əsasında isə 1 noyabr 1997-ci ildə Ukrayna diasporunun aktivistlərinin və Ukrayna Səfirliyinin yardımı ilə T. Q. Şevçenko adına Ukrayna cəmiyyəti yaradıldı. 1 oktyabr 2002-ci il tarixinə əsasən cəmiyyətin 7 rayon təşkilatı fəaliyyət göstərirdi (Ukrayna Tədris-Mədəniyyət Mərkəzinin Cari Arxivi, 2001-ci il üzrə hesabat). Son illərdə Ukrayna cəmiyyəti bir neçə tədbir keçirmişdir. Azərbaycandakı Ukrayna Diasporunun həyatında ən yadda qalan tədbirlərdən Azərbaycanda yaşayan ukraynalıların Ukrayna Prezidenti L. D. Kuçma ilə 2000-ci ilin martında təşkil olunmuş görüşü, 2001-ci ilin martında Ukrayna Ali Rada-sının sədri İ. S. Plyuşe ilə görüşü və 2001-ci il oktyabr ayında Ukraynanın XİN A.M.Zlenko ilə görüşü qeyd edə bilərik (ARDA. F.3189, siyahı 4, sax.vahidi 246, vərəq 44). Bu görüşlərdən xoş xatirə kimi Ukrayna cəmiyyətinə iki kompüter, albomlar, tədris-metodiki ədəbiyyat, maqnitofonlar və Ukrayna müəlliflərinin kitabları hədiyyə olundu.

2001-ci ilin martında Ukrayna Prezidenti L. D. Kuçmanın tapşırığı ilə Bakı Slavyan Universitetinin bazasında» Ukrayna məktəbi» təsis olundu ki, burada oxuyan 45 nəfər Ukrayna dilini, Ukrayna tarixini və mədəniyyətini öyrənməyə başladı. Məktəbdə artıq Azərbaycan və ingilisdilli və kompüter kursları, rəqs dərnəyi və. s açılmışdır. Slavyan Universitetində hələ SSRİ- dövründə ilk dəfə olaraq Ukraynaşünaslıq fakültəsi açılmışdı ki, burada Ukraynaşünaslıq sahəsi üzrə mütəxəssislər hazırlanırdı. 2001-ci ilin oktyabrında Ukraynanın Xarici İşlər naziri A. M. Zlenko «Ukrayna məktəbi» nəzdində Ukrayna mədəniyyət mərkəzi açmış və məktəbin fəaliyyəti ilə tanış olmuşdur. A. M. Zlenkonun buradakı Ukrayna diasporunun nümayəndələri ilə görüşüdə yaddaşlara həkk olunmuşdur. Bu görüş zamanı Ukraynanın müasir ictimai-siyasi və iqtisadi həyatından danışılmış və diasporun 3 aktivisti Ukrayna XİN-nin fəxri fərmanı ilə təltif olunmuşdur .Ulu Öndər H. Əliyevin düşünülmüş milli siyasəti Azərbaycandakı milli azlıqların buradakı bərabərhüquqlu və demokratik yaşamasının əsas səbəbidir. Bu siyasət

milliyyətindən və dini inanclarından asılı olmayaraq Respublikanın bütün vətəndaşlarını bərabər hüquq ilə təmin edir.

Respublikamızda yaşayan ukraynalılar Vətənim – Azərbaycana xidmət edirəm ideyası altında birləşərək müasir tariximizin sevincini və kədərini bölüşdülər. Bu ilk növbədə Qarabağ probleminə aid idi. Bakı şəhəri Xətai rayonundakı 245 nömrəli məktəbə Qarabağ münaqişəsi zamanı həlak olmuş ukraynalı gənc Ruslan Çerneqin adı verilmişdir. Ermənistan separatistləri ilə müharibədə həlak olmuş hərbi pilot V. Sereqin ölümündən sonra ən yüksək adla, «Azərbaycan Qəhrəmanı» adı ilə təltif olunmuşdur.

Ukraynanın bir çox nümayəndələri Azərbaycan xalqının rəğbətini qazanmış və onlar xüsusi nüfuza malikdirlər. Belə insanlardan hörmətə və xüsusi nüfuza malik olan Azərbaycan Respublikasının Milli Məclisinin deputatı V. V. Timoşenkonun, Azərbaycanın əməkdar artistləri M. S. Titarenko və V. P. Kovtun adlarını sadalamaq olar. Baş mütəxəssis P. P. Qutrovenko Dövlət Neft Şirkətinin dəyərli əməkdaşlarından biri hesab olunur. Ukrayna Qromadası Şurasının sədri A. A. Parxomenko da həmçinin belə insanlardandır.

«Ukrayna Qromada»sı mərkəzi daima ictimai-siyasi tədbirlər keçirir. Tədbirlərin əksəriyyəti Sumqayıt şəhərində N. P. Yandarovun başçılıq etdiyi L. Ukraynka adına Ukrayna mədəniyyəti mərkəzi tərəfindən təşkil olunur. Ukraynalı gənclərdə «Arzu-Мрія» vokal qrupu yaradaraq milli kostyumları ilə tədbirlərdə Ukrayna dilində mahnılar oxuyurlar. Ukrayna Diasporunun nümayəndələri Ukraynanın müstəqilliyinə həsr olunmuş bir sıra tədbirlərdə aktiv iştirak etmişlər. Bakının Sabunçu rayonunda və Sumqayıt şəhərində təntənəli görüşlər keçirilmiş, ukraynalı gənclər üçün xüsusi dərslər təşkil olunmuşdur (Azərbaycan Diasporu: böyük yolun başlanğıcı. 2006).

**Nəticə**

Sevindirici haldır ki, iki ölkə arasında olan dostluq əlaqələrini həmin ölkənin diasporaları tərənnüm edir. Bu gün iki xalqın nümayəndələrinin, Ukraynada yaşayan Azərbaycanlılarla, Azərbaycanda yaşayan ukraynalıların birgə alyansı yaradılmış və onlar bu tərkibdə geniş fəaliyyət göstərirlər. Azərbaycanda Ukrayna Konkresi (AUK) ilə Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin (BUAK) sədrləri arasında memorandum imzalanıb. Alyans iki ölkə arasında bütün sahələr üzrə əməkdaşlığın dərinləşməsinə töhfə verməyi əsas məqsəd götürmüşdir (Azərbaycanlılarla Ukraynalıların birgə Alyansı, https://azedu.az.news/50774-11.08.2022). Görkəmli Azərbaycan dramaturqu və filosofu M. F. Axundov qeyd etmişdir ki, ‘‘*Dünya xalqları bir-birindən təcrid olunmuş şəkildə yaşaya bilməzlər. Hər hansı bir xalqın mədəniyyəti, başqa xalqların mədəniyyətləri ilə ünsiyyətdə olmadan inkişaf edə bilməz, həmin*

*mədəniyyət bütün xalqların əldə etdiyi nailiyyətlər ilə zənginləşməli və bütün bəşəriyyətin malı olmalıdır''* (Axundov əsərləri, 1961). Zaman keçdikcə bu fikirlər ölməzləşir və öz aktuallıqlarını saxlayırlar.

**Ədəbiyyat**

Aliev, T. M. (2004). *Azerbaycan-Ukrayna işbirliği: mevcut gelişme aşaması*. Bakı.

*Azərbaycan Diasporu* (2012). (Ensiklopedik məlumatlar toplusu). Çaşıoğlu.

Azərbaycan Diasporu: böyük yolun başlanğıcı. (2006). Çaşıoğlu.

*Azərbaycan Diasporuna dövlət qayğısı*. (2006). Çaşıoğlu.

Azərbaycan Diasporuna dövlət qayğısı. (2006). Çaşıoğlu.

Azərbaycan Respublikasının Dövlət Arxivi f. 3189, siyahı 4, sax.vahidi 246, vərəq 44.

Azərbaycan Respublikasının Dövlət Arxivi fond 3189, list 1, iş 143, v.105 ARDA.

Azərbaycan Respublikasının Dövlət Arxivi fond 3189, list 2, iş 411, v.131 (ARDA).

*Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolü* (2012). Metodik vəsait, M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası.

Azərbaycanlılarla Ukraynalıların birgə Alyansı. https://azedu.az.news/50774- 11.08.2022. ARDTA, fond 970, list 1, iş 143, v.56).

*M. F. Axundov əsərləri*. (1961). (I-II-III). Azərbaycan SSR EA.

*Ukrayna Tədris-Mədəniyyət Mərkəzinin Cari Arxivi*. (2001-ci il üzrə hesabat).

Ukraynalılarla azərbaycanlıları birləşdirən çoxlu dəyərlər var. (2012, 18 iyul). *Mədəniyyət*.